www.525.az Facebook.com/525-ci qəzet - 525.az İnstagram.com/525ciqezet

Azərbaycan Milli Elmlər Akademiyası-80

# Repressiya



Asif RÜSTƏMLİ
Filologiya elmləri doktoru, professor

(Əvvəli 6 fevral sayımızda)

**Əli Nazim Mahmudzadə** (1906-1941) - Ədəbiyyat İnstitutunun yaradılmasında, onun təməl daşlarının elmi əsaslar üzərində qoyulmasında müstəsna xidmətləri olan ədəbiyyatşünas alimlərimizdən biridir. Amansız repressiya dalğalarının ondan da yan keçməyəcəyi heç kimdə şübhə doğurmurdu. Əli Nazimin özü də repressiyanın addım-addım ona yaxınlaşdığını açıq iclaslardan, mətbuat səhifələrindən duyurdu, görürdü. Hətta onun üzv olduğu Azərbaycan Yazıçılar İttifaqının mətbuat orqanı olan "Ədəbiyyat qəzeti"ndə həmkarlarından biri (M.S.Ordubadi) yazırdı: "Konturre-volyusion Trotski və zinoyevçilərin, son vaxtlar trotskizmin bütün xüsusiyyətlərini əks etdirən averbaxçılığın bütün varlığı ilə rüsvay edilməsi sovet ölkələrində olduğu kimi, Azərbaycan Sovet Yazıçıları İttifaqı qarşısında da mühüm məsələlər qoymuşdur.

...İttifaq Əli Nazim, Böyük Ağa Talıblı, Tağı Şahbazi kimi xalq düşmənlərinin ifşa edildiyi zamanda belə Əhməd Cavad, Sanılı, Salman Mümtaz və başqalarının məsələsini də həll etməli idi..."

Müəllifin həmkarları arasında yeni "xalq düşmənlərinin" axtarışı üçün təşəbbüs göstərməsi, təkliflər irəli sürməsi ən azı təəssüf doğurur. Maraqlıdır ki, yazıçının təklifləri respublikanın rəhbəri Mir Cəfər Bağırovun 1937-ci ildə partiya konfransındakı çıxışında daha sərt intonasiya kəsb etmişdir. O demişdir: "Bir çox kültür müəssisələrində xalqın qəddar düşmənləri R.Axundov, Əli Kərimov, Triniç, Əli Nazim, Talıblı, Tağı Şahbazi, Dubinski və başqaları uzun zaman bildiklərini etmişlər...

Xalq düşmənləri Talıblı, Şahbazi, Əli Nazim, Əhməd Cavad və başqalarının uzun zaman cəza görmədən yazıçılar sırasında qala bilmələri faktdır.

...Yazıçılar İttifaqının bu gün belə öz sıralarını Seyid Hüseyn, Salman Mümtaz, Yusif Vəzir, Sanılı, Hüseyn Cavid və başqaları kimi qəddar burjua millətçilərindən təmizləmədiyi faktdır.

Bu da bir faktdır ki, keçmişdə bütün bu düşmənləri Mustafa Quliyev, Cəbiyev, Qarayev və başqaları himayə və müdafiə edirdisə, bu gün bunları Ələkbərli, Şamilov, Əsəd Axundov və başqaları kimi çürük liberallar himayə və müdafiə edirlər".

Qırmızı repressiya dövründə gözdənsalma, ifşaetmə təbliğatından sonra insanların işdən azad edilməsi və həbs olunması mərhələləri başlanırdı. Bu ənənəvi üslub Əli Nazim üçün də istisna təşkil etmədi. Azərbaycan türklərinin ən əziz və müqəddəs günündə - martın 20-də EA Azərbaycan Filialı Dil və Ədəbiyyat İnstitutunun direktoru A.R.Zifeldt aşağıdakı məzmunda bir əmr imzaladı:

"Az.FAN Dil və Ədəbiyyat İnstitutu üzrə ƏMR № 21. 20 mart 1937-ci il.

İnstitut əməkdaşlarının tərkibindən - bu ilin mart ayının 19-dan Əli Nazim Mahmudzadə və Abdulla Məmməd oğlu Tağızadə, martın 13-dən isə Əbdüləzəl Dəmirçizadə azad edilsin.

Lüğət-Terminologiya sektorunun rəhbəri vəzifəsi müvəqqəti olaraq (Az.FAN Rəyasət Heyəti təsdiq edənə qədər) Abdulla Məhəmməd oğlu Şərifova həvalə edilsin. DƏİ-nin direktoru A.R.Zifeldt" (Əli Nazim. Əmr № 21. AMEA RH Elmi irs, Fond-5, s.v.-57, qutu-36).

Eyni əmrlə direktor Dil və Ədəbiyyat İnstitutunun məsul əməkdaşlarından üç görkəmli alimi - dosent Əli Nazim Mahmudzadə, Abdulla Tağızadə və Əbdüləzəl Dəmirçizadəni işdən azad edir. Əslində İnstitut direktorunun əmri iki gün gecikmişdi. Çünki Əli Nazim Mahmudzadənin XDİK tərəfindən həbsi martın 18-də, bazar günü həyata keçirilmişdir. Novruz bayramı günü, martın 22-də müstəntiqin ona qarşı irəli sürdüyü ittiham İstanbulun "Türk yurdu" dərgisinin (1927) iki sayında çap edilən "Yeni Azərbaycan ədəbiyyatı" adlı məqaləsi olmusdur. Ümumiyyətlə, Əli Nazim də digər həmkarları kimi, "əksinqilabçı, millətçi, pantürkist" fəaliyyətinə görə ittiham olunurdu.

22 aprel 1937-ci ildə Əli Nazim dördüncü dəfə dindirilərkən müstəntiq ona belə bir sual verir:

"Sual: SSRİ EA Azərbaycan Filialının elmi və ədəbi fəaliyyət xətti üzrə ziyankarlıq faktları haqqında istintaqa danışın.

Cavab: Rəhbərlik Ruhulla Axundovun əlinə keçdikdən sonra belə bir xətt götürülmüşdür. Bu xətt inqilabi-demokratik yazıçıların - Sabir, Molla Nəsrəddin (Cəlil Məmmədquluzadə), M.F.Axundzadə - nüfuzdan salınmasına, mürtəce-burjua cərəyanı yazıçılarının - Hüseyn Cavid, Cavad Axundzadə, Əli Bəy Hüseynzadə və əksinqilabi "Füyuzat" jurnalının ənənələrinin genişləndirilməsinə və yayılmasına yönəldilmişdir" (Ziya Bünyadov. Əli Nazim Mahmudzadə. Qırmızı terror. - Bakı: Azərnəşr, - 1993, s.149). Əli Nazim məhkəmədə günahlarını "etiraf" etmişdir.

Azərbaycan elminin görkəmli nümayəndələrindən bir qrupunun - V.Xuluflunun, B.Çobanzadənin, H.Zeynallının, Böyükağa Talıblının güllələndiyi gün - oktyabrın 13-də (1937) SSRİ Ali Məhkəməsi Hərbi kollegiyası səyyar Sessiyasının qərarı ilə Əli Nazim 10 il həbs cəzasına məhkum edilmişdir. O, 1941-ci ilin avqustun 23-də Rusiya Federasiyasının Oryol həbsxanasında ağır şəraitdə dünyasını dəyişmişdir.

Əli Nazimin oğlu Ramin Mahmudzadə 19 iyul 1956-cı ildə atasına bəraət verilməsi üçün DTK-ya müraciət etmişdir. Eyni zamanda 21 may 1956-cı ildə Azərbaycan Yazıçılar İttifaqından Əli Nazim haqqında müsbət xasiyyətnamə verilmiş, sənədi görkəmli yazıçı və şairlərdən Mehdi Hüseyn, Süleyman Rəhimov, Süleyman Rüstəm, Məmməd Arif, Mir Cəlal Paşayev, Əli Vəliyev, İlyas Əfəndiyev, Bəxtiyar Vahabzadə və b. imzalamışlar.

Beləliklə, SSRİ Ali Məhkəməsi Hərbi kollegiyasının 19 sentyabr 1957-ci il tarixli qərarı ilə işində cinayət tərkibi olmadığı üçün Əli Nazim Mahmud oğlu Mahmudzadəyə bəraət elan edilmişdir.

+++

EA Azərbaycan Filialı Dil və Ədəbiyyat İnstitutunun 1937-ci il kollektiv və fərdi iş planından söz açmaq, uğurları vurğulamaq çox çətindir. Çünki bu dövrdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, elminin tarixini mütəxəssislər, elm adamları yox, sovet rejimini süngülər ucunda yaşadan Xalq Daxili İşlər Komissarlığının müstəntiqləri qan ilə yazırdı. "1937" - bolşevizmin ədəbi-mədəni mühitimizə atdığı Xirosima bombasıdır - desək, bəlkə də yanılmarıq. İnstitutların kadr potensialına süpürgə çəkilirdi. Həbs edilən alimlərin sayı elə sürətlə artırdı ki, bəzən bir institutda bir şöbənin əməkdaşları qədər işçi qalmırdı. Akademiyanın Azərbaycan Filialında institutların birləşdirilməsi zərurəti yaranmışdır.

Təqdim edilən əmrdən də göründüyü kimi, Akademiya sistemində iki nüfuzlu institutun birləşdirilməsi planı sürətlə reallaşdırılırdı. Azərbaycan Xalq Daxili İşlər Komissarlığının böyük canfəşanlıqla apardığı "təmizləmə", "ifşaetmə" əməliyyatları İnstitutların şöbələrini, sektorlarını boşaltmış, əməkdaşların sıralarını seyrəltmişdir. Belə bir acınacaqlı şəraitdə - 1937-ci ilin mayın əvvəllərində xalqımızın tarixi və mənəviyyatı ilə sıx bağlı olan iki elmi-tədqiqat ocağı - Dil və Ədəbiyyat İnstitutu ilə Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu yuxarı orqanların qərarı ilə birləşdirildi. Yeni yaranan struktur Tarix, Dil və Ədəbiyyat İnstitutu adlandırıldı. Professor Artur Rudolfoviç Zifeldt-Simumyaqiyə yeni yaradılmış institutun direktoru vəzifəsi həvalə edildi.

Yeni qurumun rəhbəri kimi Artur Rudolfoviç Zifeldtin may ayının 20-də yeni statusda imzaladığı əmr institutun kiçik elmi işçisi Əmin Abid Əhmədovun institutun tələblərinə cavab verə bilmədiyinə görə işdən xaric edilməsi ilə bağlı idi. Sənəddə göstərilirdi ki, Əmin Abid onda olan materialları siyahı üzrə üç gün müddətində Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri Əli Əjdər Seyidzadəyə təhvil verməklə işdən azad olunur.

**Əmin Abid Mütəllibzadə** (1898-1937) - RH Elmi arxivində saxlanılan tərcümeyi-halına əsasən 1898-ci ildə Bakı şəhərində anadan olub. İlk təhsilini Bakıda Alekseyev adına məktəbdə alıb, İstanbul Müəllimlər seminariyasında oxuyub, sonra isə İstanbul Darülfünunun tarix-ədəbiyyat bölməsində təhsilini başa vurmuşdur (1926).

İstanbulda təhsil aldığı illərdə Budapeştdə elmi-tədqiqat işləri ilə məşğul olub. İlk yazısı 1912-ci ildə "Kəlniyət" jurnalında dərc edilib.

Əmin Abid 1913-1916-cı illərdə rus ədəbiyyatının klassiklərindən Puşkin, Tolstoy, Turgenev, Qoqol, Qorbunov və b. əsərlərini Azərbaycan türkcəsinə çevirmişdir.

"Azərbaycan türklərinin ədəbiyyatı tarixi" adlı magistr dissertasiyası yazan Əmin Abid Mütəllibzadə 1927-ci ilin əvvəllərində Bakıya qayıtmış, bir müddət qəzalarda müəllimlik etmişdir. Onun 1922-1930-cu illərdə yazdığı "Azərbaycan ədəbiyyatı tarixi" adlı tədqiqat işi 30 ç.v. həcmində idi. Ədəbiyyatşünaslığa aid elmi-tədqiqat işlərini "Serveti-fünun" (İstanbul, 1922-1924), "Türk yurdu" (Ankara, 1924), "Həyat" (Ankara, 1926), "Maarif və mədəniyyət" (Bakı, 1926), "Maarif işçisi" (Bakı, 1927-1928), "Dan ulduzu" (Tiflis, 1927-1928), "Maarif ve okudkucu" (Səmərqənd, 1929), "Azərbaycanı öyrənmə yolu" (Bakı, 1930), "İnqilab və mədəniyyət" (Bakı, 1930-1933) və mətbuat orqanlarında çap etdirmişdir.

Əmin Abid 1927-ci il sentyabr ayından Azərbaycan Universitetində elmi işçi kimi fəaliyyətə başlamış, bir müddət sonra Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətində çalışmış, 1933-cü ildən işdən çıxarıldığı 20 may 1937-ci ilədək SSRİ Elmlər Akademiyası Azərbaycan Filialının Tarix, Dil və Ədəbiyyat İnstitutunda 1-ci dərəcəli elmi işçi statusunda fəaliyyətini səmərəli davam etdirmişdir.

Prof.A.R.Zifeldtin 20 may 1937-ci il tarixli əmri Əmin Abid üçün çox kövrək və həssas bir məqamda imzalanmışdır. Çünki onun filologiya elmləri namizədi dərəcəsi almaq üçün müvafiq sənədləri SSRİ Elmlər Akademiyasının Mərkəzi Kvalifikasiya Komissiyasına göndərilmişdi və təsdiqlənmək ərəfəsində idi. Lakin Tarix, Dil və Ədəbiyyat İnstitutunun elmi katibi O.M.Sokolovskaya Mərkəzi Kvalifikasiya Komissiyasını qabaqlayaraq SSRİ EA Katibliyinə 28 may 1937-ci ildə məktub göndərmiş Əmin Abid Əhmədovun təyinatına uyğun gəlmədiyi üçün Az.F-dən çıxarıldığını bildirmişdir. Dərhal SSRİ EA Katibliyinin rəhbəri A.X.Petrosyan EA Azərbaycan Filialının sədr müavini Cəfər Kazımova məktub göndərərək ədəbiyyatşünaslıq üzrə elmlər namizədliyinə iddialı Ə.A.Əhmədovun şəxsi işinin geri qaytarılması üçün göstəriş verildiyini diqqətə çatdırmışdı. Əslində Əmin Abid 2 ildən çox idi ki, elmi dərəcə almaq üçün bürokratik strukturlarla mübarizə aparırdı. Hələ 1935-ci il 25 noyabrda Əli Nazimin imzaladığı Ə.A.Əhmədovun elmi fəaliyyəti haqqında Ədəbiyyat Sektorunun verdiyi rəydə yazılırdı: "SSRİ EA Azərbaycan Filialının Ədəbiyyat Sektoru 1-ci dərəcəli elmi işçi Əmin Abidin dissertasiya müdafiə etmədən onun elmlər namizədi elmi dərəcəsinə layiq görülməsini tövsiyə edir. Sektor hesab edir ki, Əmin Abid EA Az.F-dəki işi və mətbuatda çıxan elmi əsərləri ilə vicdanlı və diqqətçil əməkdaş olduğunu, əsas elmi-tədqiqat işlərini marksist metodologiyaya əsaslanaraq həyata keçirməyi bacardığını göstərmişdir.

M.F.Axundzadənin, Mirzə Şəfinin və b. həyat və fəaliyyətləri barədə ilk tədqiqat işi Əmin Abidə məxsusdur. Sektor iddiaçının elmi məqalələrini və xüsusilə M.F.Axundzadə haqqında tədqiqatlarını yetərli sayaraq ona ədəbiyyatşünaslıq üzrə elmlər namizədi elmi dərəcəsinin verilməsini məqsədəuyğun sayır" (Əli Nazim. Əmin Abid haqqında Rəy. AMEA RH Elmi irs şöbəsi., Fond-39,

www.525.az Facebook.com/525-ci qəzet - 525.az İnstagram.com/525ciqezet

Azərbaycan Milli Elmlər Akademiyası-80

# və ədəbiyyat

s.v.-44, qutu-6).

Sektorun rəyinə Ə.Abidin elmi əsərlərinin siyahısı əlavə olunmuşdur. Siyahıda 34 elmi işin adı yer almış, iddiaçı haqqında akademik Bartold, akad. Samoyloviç, prof. M.F.Köprülüzadə, Yaqub Kadri və b. nüfuzlu alimlərin məqalə yazdığı qeyd edilmişdir. Əmin Abidin ədəbiyyat qarşısında tutumlu xidmətlərinə baxmayaraq, o, sevdiyi və ömrü boyu bağlı olduğu elmi-tədqiqat işindən uzaqlaşdırılır. Lakin həbs edilməsi bir ildən çox çəkir. XDİK-in müstəntiqi Tevosyanın 23 iyun 1938-ci ildə Əmin Abid Mütəllib oğlu haqqında hazırladığı həbs qərarı təsdiqlənir. İyun ayının 26-da Əmin Abidin həbsi və evində axtarış aparılması ilə əlaqədar 394 saylı order də imzalanır.

Əmin Abid Azərbaycan mətbuat tarixində müstəsna xidmətləri ilə yadda qalan, tanınmış şair, publisist Əliabbas Müznib Mütəllibzadənin kiçik qardaşı idi. Sorğu-sual bitdikdən sonra 19 avqust 1938-ci ildə İttihamnamə hazırlanır. Sənəddə qeyd edilir ki, Əmin Abid Müsavatın lideri Məhəmməd Əmin Rəsulzadə ilə dəfələrlə görüşmüş, "Yeni Qafqasiya" dərgisində əksinqilabi, antisovet məzmunlu şeirlər çap etdirmiş, pantürkist professor Əziz Qubaydulin, dosent Əli Nazim ilə sıx əlaqə saxlamışdır.

Əmin Abid Mütəllibzadə əksinqilabi, millətçi və casusluq fəaliyyətinə görə SSRİ Ali Məhkəməsi Hərbi kollegiyası səyyar Sessiyasının 19 oktyabr 1938-ci il tarixli qərarı ilə əmlakı müsadirə olunmaqla ən ağır cəzaya - güllələnməyə məhkum edilmiş, 21 oktyabrda hökm icra edilmişdir.

Əmin Abid Mütəllibzadəyə işində cinayət tərkibi olmadığına görə 21 dekabr 1962-ci ildə bəraət verilmişdir.

+++

**Xalid Səid Xocayev** (1888-1937) - EA Az.F. Tarix Dil və Ədəbiyyat İnstitutunun kiçik elmi işçisi vəzifəsindən 5 iyun 1937-ci ildə 17 saylı əmrlə 4 iyundan işdən azad edilmişdir. Sənəddə İnstitutun direktoru A.R.Zifeldt göstərilib və o, əmrə imza atmayıb. Görünür ki, bu əmr iyunun 1-dən əvvəl hazır imiş və sənədi Ə.Əhmədovun əvəzinə institutun elmi katibi Anna Mövsümzadə imzalamışdır. Əhməd Əhmədov isə 15 iyun 1937-ci il tarixli 24 saylı əmri ilə A.M.Şərifov, X.Ç.Qədimov və M.A.Hüseynovdan ibarət komissiya yaradaraq institutun sabiq işçisi Xalid Səid Xocayevin yazı stolunun qıfılını açmaq və onun stol və dolabındakı materialları siyahıya almaq, aşkarlanmış materialların akt üzrə institutun elmi arxivinə təhvil verilməsi təklif edilmişdir (Ədalət Tahirzadə. "Əhməd Əli oğlu Əhmədov". Bakı: "525-ci qəzet", - 2005, 8,11 yanvar).

Xalid Səid Xocayevin yazdığı və AMEA-nın Arxivində saxlanılan qısa tərcümeyi-halına əsasən o, 1888-ci ildə Daşkənd şəhərinin 25 kilometrliyində yerləşən Kaşkurçaq kəndində anadan olub. O, 1934-cü ildə Akademiyaya işə qəbul olunarkən ərizə yazmış, EA ZF Azərbaycan Bölməsi İdarə Heyətinin üzvü, professor Vəli Xuluflu Xalid Səid Xocayevin ərizəsinin üzərindəki dərkənarda: "Heyəti-Riyasətə. Xahiş edirəm birinci dərəcəli elmi işçi təyin edəsiniz. Əməkhaqqının aylıq üç yüz manat olmağı daha münasib" olduğunu bildirmişdir.

Prof. V.Xuluflunun dərkənarından sonra X.S.Xocayev təbii ki, Dil və Ədəbiyyat İnstitutunun dil seksiyasına qəbul edilmiş, 1934-cü ilin sentyabrından Mahmud Kaşğarinin "Divanü lüğat-it Türk" əsərini tərcüməyə başlamış, bəzi qeydlərə görə 1936-cı il iyunun 1-də 3 cildlik nəhəng abidə üzərində işini başa çatdırmışdır. X.S.Xocayev kitaba "Mahmud Kaşğarinin "Divanü lüğat-it Türk" adlı 11 səhifəlik mükəmməl bir müqəddimə yazmış, həbs olunan günə qədər əsəri təkmilləşdirməklə məşğul olmuşdur. Onun 1 iyun 1937-ci ildə Kabardin-Balqar Vilayət Komitəsinə, yol. Kumukova yazdığı sonuncu məktub "Divanü lüğat-it Türk" haqqında idi və elmi katib O.M.Sokolovskayanın 9 iyunda məktubun üzərində yazdığı dərkənarda qeyd edilirdi ki, "Xocayev həbs olunduğu üçün məktub göndərilmir". Xalid Səidin ünvanına çatmayan məktubunun məzmunundan məlum olur ki, Kumukov "Divan"ın kumuk və ya qaraçay-balqar dilinə tərcümə edilməsi üçün imkanları araşdırır və bu barədə 4 mart 1937-ci ildə Xocayevə məktubla müraciət edibmiş. Xalid Səid cavabın gecikdiyi üçün üzr istəyir, "Divan"ı nəşrə hazırladığını, əsərin redaktoru, akademik İ.Y.Kraçkovski və prof. S.Malov ilə iyulun 1-də görüşməyə ümid bəslədiyini, bu məqsədlə Leninqrada gedərkən iyunun 25-də Nalçikdə dayanacağını və arzu edərsə, onunla görüşmək imkanının olacağını bildirirdi. Təəssüf ki, bu ümidlərin heç biri özünü doğrultmadı. Xalid Səid 3 iyun 1937-ci ildə həbs olunur və ilk dəfə 5 iyunda istintaqa çağrılır. Ona qarşı irəli sürülmüş əksinqilabi, pantürkist təşkilatın üzvü olması barədə ittihamı rədd edir. 21 iyun tarixindən sonra isə "günahlarını" etiraf etməkdə üzüyolalıq göstərir.

Dindirmə materiallarından bəlli olur ki, müstəntiq Xalid Səidi Türkiyə kəşfiyyatına xidmətdə və pantürkist ideyaları təbliğ etməkdə suçlayır. O, böhtana və şərlənməyə etiraz edəndə müstəntiq zor tətbiqini və işgəncəni yada salmışdır.

Xalid Səidin cavablarında iki diqqətçəkən məqama toxunmağı gərəkli hesab edirik. Onlardan birincisi: "1918-ci ildə mən İstanbul Universitetinin bir qrup tələbəsi ilə birlikdə Nuru Paşanın Türk ordusunda Azərbaycana göndərilmişdim". Bu fikirdən bəlli olur ki, Xalid Səid İstanbul Universitetinin bir qrup tələbəsi ilə Qafqaz İslam Ordusunun tərkibində Azərbaycana gəlmişdir. Gənc tələbələrin xilaskarlıq missiyası daha ciddi tədqiqat işlərinin aparılmasını tələb edir. İkincisi isə Xalid Səid "Vəli Xuluflu və Zifeldt Mahmud Kaşqarinin pantürkist kitabını tərcümə etdiyim üçün məni müdafiə edirdilər" - deməklə əslində "Divanilüğat-it türk"ün yüksək dəyərini qabartmaqla Vəli Xuluflu və Zifeldt kimi alimlərin cəsarətini, mərdliyini, haqsevərliyini vurğulamış olurdu.

Xalid Səid Xocayevin istintaq prosesi 13 sentyabr 1937-ci ildə dayandırılır. O, əksinqilabi, pantürkist təşkilatın üzvü olmaqda, Türkiyənin xeyrinə kəşfiyyat işi aparmaqda ittiham olunur.

SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası Səyyar Sessiyasının (tərkibi: Matuleviç, Zaryanov və Jiqur) 12 oktyabr 1937-ci il tarixli qərarı ilə Xalid Səid Xocayev antisovet, pantürkist, təxribatçı-terrorçu, casus təşkilatın üzvü, Vahid Türk-Tatar burjua dövlətini yaratmaqda, əksinqilabi-millətçi təbliğat aparmaqda günahlandırılaraq ən ağır cəzaya - güllələnməyə məhkum edilmişdir. Bir gün sonra, 13 oktyabr 1937-ci ildə hökm icra olunmuşdur.

Xalid Səidin həyat yoldaşı Sara Xocayevanın 16 aprel 1955-ci il tarixli müraciətinə əsasən SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının 16 may 1957-ci il tarixli qərarı ilə işində cinayət tərkibi olmadığına görə X.S.Xocayevə bəraət verilmişdir.

SSRİ EA Azərbaycan Filialının Rəyasət Heyəti Tarix, Dil və Ədəbiyyat İnstitutunun direktoru vəzifəsinə Əhməd Əhmədovun həbsindən sonra dövrünün tanınmış dilçisi, professor İdris Həsənovu təyin etmişdir.

***İdris Zaman oğlu Həsənov*** (1897-1950) - 1938-ci ildə imzaladığı tərcümeyi-halında və "Kadro uçotu şəxsi vərəqəsi"ndə 2 sentyabr 1897-ci ildə Gəncədə papaqçı ailəsində anadan olduğunu, Ali-ibtidai məktəbi türk və fars dilində bitirdiyini (1908-1913), Gəncədəki Kredit Cəmiyyətində hesabdar işlədiyini (1912-1919), Cümhuriyyət dövründə Azərbaycan Ordusunda tərcüməçi kimi xidmət etdiyini, 1919-cu ilin dekabr ayında Bakı Universitetinin Şərq fakültəsinə daxil olduğunu və buranı 1925-ci ildə bitirdiyini qeyd etmişdir. O, bir müddət Yeni Əlifba Komitəsinin katibi və mühasibi (1922-1925), "Kəndçi qəzetəsi"ndə Kənd təsərrüfatı şöbəsinin müdiri (1925-1926), 1925-ci ilin yanvarından 1930-cu ilin oktyabr ayınadək Azərbaycan Dövlət Universitetində elmi işçi vəzifəsində çalışdığını qeyd etmişdir.

İdris Həsənov 1923-1929-cu illərdə ATTC-də dil-lüğət komissiyasının (material toplamaq üzrə) sədri işləmiş, Moskvada Şərq Xalqları Elmi-Tədqiqat İnstitutunun aspiranturasını bitirərək (1926-1930) ümumi linqvistika üzrə dosent elmi adına layiq görülmüş, APİ-yə müəllim göndərilmişdir. Az.DETİ-də 1 yanvar 1932-ci ildə Dil sektorunun rəhbəri təyin edilmiş, yeni əlifba əsasında korlar üçün əlifba layihəsini işləyib hazırlamışdır.

İdris Həsənov 1 fevral 1933-cü ildə EA ZF Azərbaycan Bölməsinə elmi işçi olaraq dəvət edilmişdir. O, 12 il müddətində (1925-yanvar 1938) dilçilik elmimizə aid 44 sanballı əsərlər yazaraq fədakar elm xadimi olduğunu təsdiqləyən tədqiqatçılardandır.

İ.Həsənov A.R.Zifeldtin təqdimatı ilə 25 mart 1937-ci ildə Azərbaycan dili şöbəsinin rəhbəri və böyük elmi işçisi təyin edilib. Aradan üç ay keçməmiş o, yeni vəzifəyə təyinat alır. Az.F Rəyasət Heyətin 19 iyul 1937-ci il tarixli qərarı ilə İ.Həsənov birləşmiş Tarix, Dil və Ədəbiyyat İnstitutunun direktoru vəzifəsini icra etməyə irəli çəkilir. İnstitutun yeni direktoru ağır şəraitdə fəaliyyətə başlayırdı. Aparıcı mütəxəssislər, şöbə müdirləri, direktor müavinləri həbs edilmiş, ilin əvvəlindən qəbul olunmuş iş planı üçün məsuliyyət daşıyan cavabdeh şəxs faktiki yox idi. İşçilərin azad edilməsi limiti tükənmizdi. Əksinə, instituta yeni əməkdaşların qəbul olunmasına ciddi ehtiyac duyulurdu. Bu istiqamətdə ilk addım sentyabrın 5-də Feyzulla Qasımzadənin (1898-1976) instituta - ədəbiyyat şöbəsinə kiçik elmi işçi vəzifəsinə gətirilməsi oldu. Bu addımın ardınca tanınmış xanım pedaqoq ***Çimnaz Aslanova*** (1904-1970) 19 oktyabr 1937-ci ildə instituta kiçik elmi işçi vəzifəsinə qəbul edildi.

Azərbaycan şərqşünaslığının təməlini qoyanlardan biri - prof. Panteleymon Juzenin (Bəndəli ibn Salib əl-Cəuzi) İdris Həsənovun adına yazdığı ərizədən məlum olur ki, institut işə yeni əməkdaşlar dəvət edir və o da öz namizədliyini müvafiq bir vəzifəyə irəli sürür. Və təbii ki, P.K.Juzenin TDƏİ-yə daxil olmaq arzusu nəticə etibarilə müsbət həll olunur.

İdris Həsənov institutun ən ağır dövründə, elmi-təşkilati həyatında fəallıq göstərir, xüsusilə gənc qüvvələri tədqiqat işinə cəlb etməyi, onları səfərbərliyə almağı bacarır. Yeni direktorun 1937-ci il üçün hazırladığı və 11 dekabr 1937-ci ildə imzaladığı "Qısa informasiya hesabatı"na əsasən Tarix, Dil və Ədəbiyyat İnstitutu beş şöbədən (Maddi mədəniyyət tarixi, Tarix, Azərbaycan dili, Azərbaycan ədəbiyyatı və Milli azlıqlar) və iki sektordan (Etnoqrafiya və Folklor) ibarət idi.

İdris Həsənov "ifşa edilmiş xalq düşməni" kimi 5 aprel 1938-ci ildə TDƏİ-nin rəhbərliyindən və EA Azərbaycan Filialı Rəyasət Heyətinin üzvlüyündən çıxarılmışdır. Həmin gün prof. İdris Həsənov həbs olunmuş, onun haqqında 25440 saylı cinayət işi açılmışdır. İlk istintaq da 5 apreldə baş tutmuş, irəli sürülən şablon ittihamları müttəhim rədd etmişdir.

İdris Həsənov müstəntiqlər tərəfindən dəfələrlə işgəncə və təzyiq altında dindirilsə də, saxta, şablon ittihamlara baş əyməmiş, şər və böhtanları cəsarətlə dəf etmişdir. 1938-ci il sentyabrın 30-da istintaq başa çatdırılsa da, sonadək qürur və ləyaqətini qorumuş, sənədlərlə tanış olmaqdan imtina etmiş, protokol və aktları imzalamamışdır.

İstintaq sənədlərində İdris Həsənovun "əksinqilabi təşkilatın fəal üzvü" olduğu, "pantürkist və millətçilik ideyalarını" təbliğ etdiyi, gənclər arasında "burjua-millətçi ədəbiyyatı" yaydığı vurğulanmışdır.

1939-cu ilin iyun ayında SSRİ XDİK yanında Xüsusi Müşavirənin qərarı ilə İdris Zaman oğlu Həsənov əksinqilabi təşkilatda iştirakına görə 8 il müddətinə Krasnoyarsk diyarında islah-əmək düşərgəsində cəzasını çəkməyə məhkum edilir, Maqadanda sürgün müddətində infakt keçirir. Sürgündən sonra o, Azərbaycana qayıtmış, bir müddət Gəncədə orta məktəbdə müəllim işləmiş, 1949-cu il dekabrın 21-də təhlükəli element kimi yenidən həbs olunmuş, 1950-ci il noyabr ayının 3-də intihar etmişdir.

27 sentyabr 1957-ci ildə onun haqqında çıxarılan hökmlər ləğv edilmiş, işində cinayət tərkibi olmadığına görə Həsənov İdris Zaman oğluna bəraət verilmişdir.

Repressiya - insani, ədəbi-mənəvi itkilərimizi ölçüsüz, hüdudsuz bir mərhələyə çatdırsa da, məğlubiyyətə məhkum idi. Ədəbiyyat - daxili-mənəvi qüdrətinə güvənərək repressiyanın dağıntıları, xarabalıqları üzərində zəfər sancağını ucaltdı... Dövlət, vətən, cəmiyyət üçün ləyaqətli, bilikli, dürüst, demokratik düşüncəli insan tərbiyə etmək məhz ədəbiyyatın fövqəladə səlahiyyətidir.